## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR ƏLİ KƏRİM HAQQINDA

Əli Kərim poeziyamıza yeni nəfəs, yeni düşüncə tərzi gətirmiş şairlərdəndir. Onun şeirlərində dərin fəlsəfi qat və böyük istedad var.

***Bəxtiyar Vahabzadə,***
***Xalq şairi***

Əli Kərim vaxtından əvvəl doğulmuş böyük istedad idi. Onun poeziyasının həqiqi dəyəri illər keçdikcə daha aydın görünür.

***Məmməd Araz,***
***Xalq şairi***

Əli Kərim poeziyada öz yolu olan şair idi. O, şeirə yeni baxış, yeni nəfəs gətirmişdi.

***Fikrət Qoca,***
***Xalq şairi***

Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığını təkrarlaya-təkrarlaya qalxır. Şair də var ki, öz-özü ilə yarışdadır, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndi.

O deyə bildiklərinin, demək istədiklərinin az, çox az bir hissəsini dedi. Bu az hissə də şair Əlinin çox böyük poetik imkanlarını aydın göstərir.

***Rəsul Rza,***
***Xalq şairi***

Bir gənc şair kimi mən onu sevirəm. Onun əsərlərində bir təravət vardır; onun əsərlərində bir gözəllik, şeirlərindəki ədada bir təzəlik vardır. Əli Kərimov şeirləri ilə oxucunun qəlbini ovlamağa çalışır və biz gənc şairin ildən-ilə bu sahədəki müvəffəqiyyətinin şahidi oluruq. Şeir dünyasındakı kiçik, lakin xoşa gələn bu ulduz oxucular aləminə daha yaxın və parlaq görünmə vəziyyətindədir.

***Məmməd Rahim,***
***Xalq şairi***

Əli Kərim ədəbiyyatımızda öz yolu olan sənətkardır. O, klassik ənənə ilə müasir poetik təfəkkürü birləşdirə bilmişdir.

***Anar,***
***Xalq yazıçısı***

Əli Kərimin poeziyası səmimi və intellektualdır. Onun şeirlərində insanın daxili aləmi və zaman anlayışı xüsusi yer tutur.

***Elçin,***
***Xalq yazıçısı***

Əli Kərim Azərbaycan poeziyasının parlaq nümayəndələrindəndir; onun şeirləri səmimi, dərin məzmunlu və insan ruhuna toxunan yaradıcılıq nümunəsidir.

***Çingiz Abdullayev,***
***Xalq yazıçısı***

Əli Kərimin ömrü, öz şair sözü kimi, poeziyada atributa çevrilmişdi. Bu gün onun üslubunu, deyim tərzini, söz-obrazlarını davam etdirən şairlər var. Əli Kərim mövzu məhdudluğu bilməyib,

mövzu əlvanlığı, həm də seçilmiş mövzunu orijinal işləmə tərzi onun yaradıcılığını səciyyələndirən cəhətlərdəndir.

***Tofiq Hacıyev,***
***akademik***

Əli Kərim poeziya sənətində dərin və önəmli yaradıcılığı ilə xalq ədəbiyyatının inkişafına töhfə verən şairdir.

***Xudu Məmmədov,***
***professor, AMEA-nın müxbir üzvü***

Əli Kərim təsvir və tərənnüm etdiyi predmetlərin həm zahiri xassələrini ətraflı öyrənir, həm də mahiyyətinə nüfuz etməyi bacarır. O, predmetlər və hadisələr arasındakı qarşılıqlı əlaqələri ustalıqla tapır müəyyən obyekt haqqında həm həyəcanla, həm də ətraflı danışa bilir...

Əlinin şeirlərində süjetlilik və xarakter yaratmaq bacarığı kəskin şəkildə nəzərə çarpır. Bu süjet əhvalat kimi, söhbət kimi deyil, müəyyən bir fikrin, kənar məsələlərə əl atılmadan inkişafı kimi verilir. Bu süjet şəffafdır, gözə görünməzdir, zərifdir. Əlinin yaratdığı xarakterlər isə yalnız birtərəfli olmayıb, müəyyən cizgilərə malikdir. Əlinin süjetli, xarakterli şeirləri onun poema janrına müvəffəqiyyətlə keçməsi üçün möhkəm zəmin olmuşdur.

***Altay Məmmədov,***
***nasir, dramaturq, filologiya elmləri namizədi***

Əli Kərim poeziyası mənim üçün həmişə təzədir, çünki nə öz zamanının, nə də sonrakı illərin tozu o poeziyanın heç bir sətrinə qona bilmədi. Bax, indi bu sətirləri yazanda, Əli Kərim haqqında, ona sevgim barədə düşüncələrimi qələmə alanda həmin həqiqəti xatırladım - zaman bir çox şairi sındırdı, amma Əli Kərimə toxuna bilmədi.

***Vaqif Yusifli***
***Əməkdar mədəniyyət işçisi, professor***

Mən Əlinin şeirlərini çoxdan "tanıyıram". Onları mənə heç kəstəqdim etməyib və təbliğ etməyib, heç kəs oxumağı məsləhət görməyib. Qəribə də olsa, hərdən mənə elə gəlir ki, o şeirlər mənim yaxın həmdəmim, tay-tuşlarım və dostlarımdır, istədiyim vaxt onlarla "bölüşə" bilərəm. Onlar evdə də, səfərə çıxanda da yanımda, gözümün önündə olur. Mübaliğəsiz deyirəm ki, Əli Kərim yaradıcılığı mənim poeziya dərsliyimdir.

***İsa İsmayılzadə,***
***şair, publisist***

İntellektual sənət, hər şeydən əvvəl, xüsusi elmi dərinliyi və fəlsəfi ruhu ilə seçilməlidir. Lakin hər cür fəlsəfi əsərə də intellektual demək olmaz. Burada fəlsəfə və yaxud fəlsəfi fikir müasir ruhlu, qeyri-didaktik və nəhayət, sırf poetik fəlsəfə-poeziyanın konkret və müasir həyat fəlsəfəsi olmalıdır… İntellektual poeziyadakı obrazlar silsiləsi tamamilə yeni və fərdi olmaqla bərabər, yenə də intellekt süzgəcindən keçməlidir. Bu obrazlar oxucunu düşündürməli, yaddaşına həkk olunmalı və öz çəkisi və sanbalı ilə seçilməlidir. Nəhayət, intellektual poeziya yeni forma xüsusiyyətləri ilə də zəngin olmalıdır.

***Arif Abdullazadə,***
***şair,nasir, alim***

Əli Kərimin bu gün də sevilməyinin iki səbəbi var: birincisi, Əli Kərimin öz şəxsiyyəti; atam cəmi 38 il yaşadı. Amma onun vəfatından sonra hədsiz sayda adamlarla rastlaşdım ki, onlar "mən Əli Kərimin ən yaxın dostuyam" dedilər. İnsanın bir-iki yaxın dostu ola bilər. Amma "Əli Kərimin

ən yaxın dostu mənəm, o birilər yox" deyən bir çox adamlar gördüm. Həmçinin, onların hər birindən özümə qarşı həddindən artıq səmimi münasibətin şahidi oldum. Məndə belə təəssürat yarandı ki, Əli Kərimdə də bunlara qarşı belə səmimi münasibət olub. Onda insanları özünə cəlb edən bir çox məqamlar var idi.

İkincisi, yaradıcılığı; onu görməyən adamlar təbii ki, Əli Kərimi yaradıcılığına görə dəyərləndirirlər. Onun ünvanına bir çox şeirlər yazılıb, hamısı da çox səmimi. Bu cür şeirlərin sayı həddindən artıq çoxdu. Əli Kərim bu mənada Azərbaycan poeziyasının digər nümayəndələri ilə müqayisəyə gəlmir.

***

Onu vəsiyyətinə uyğun olaraq, şeir və musiqi sədaları altında dəfn etdilər.

***Paşa Kərimov,***
***Əli Kərimin oğlu, filologiya elmləri doktoru***

Şairlər var ki, onların ədəbi doğuşarı özlərindən asılı olmur, onu şablonlaşan, canı sıxılan zaman özü həyat səhnəsinə dəvət edir. Ə.Kərim şeirimizə canı sıxılan zamanın dəvətlisi olaraq gələn vazkeçilməz şairlərdən biridir və nə qədər ki, zaman mövcud olacaq, onun sifarişiylə gələn Ə. Kərim şeiri də var olacaq!

***Məmməd İsmayıl,***
***şair, yazıçı***